# "URAL BATIR", "KİTABİ-DEDE QORQUD" VE "MAADAY QARA" EPOSLARINDA QEDİM TÜRK MEİŞET TESVİRLERİ

Nezaket HÜSEYİNOVA*

"Ural Batır" dastanı eski türk xalqlarının dastanlarındakı meişet tesvirlerinden arxaikliyi ve özünemexsusluğu ile seçilir. Abidenin araikliyini nezere çapdıran süjetlerden biri ve en başlıcası dastanda tesvir edilen ilk Başqırd ailesinin ibtidai meişetidir. Abideden me'lum olduğu kimi ilk Başqırd ailesinin temsilçileri Yembirde ata, Yanbike ana, onların iki övladı Şulken ve Uraldır. Bu ailenin meişetinin primitivliyi, ibtidailiyi abidenin qedimliyini isbat etmeye imkan verir. Bele ki, onlar ancaq ovçuluqla meşğul olurlar, ovladıqlarını çiy yeyir, qazan asmır, su qaynatmır, xemir yoğurmurlar.[1]

"Ural Batır" dastanındakı ilk ailenin meişetinde odun tesvirine rast gelmek mümkün deyil.

"Ural Batır" dastanında içki növü kimi temiz su ve heyvandan zeli vastesile sorulmuş ve müeyyen moddet balıqqulağında saxlanmış qandan istifade olunur. Ata oğullarına deyir:

"Oynayarken susuzlasanız, temiz su için, balıqqulağına yığdığım qandan ağzınıza vurmayın".[2]

Qan, bu eposda içkiden çox remzi me'na daşıyır. Bele ki, qanı her bir şexs içe bilmez. Qanı içen şexs ölümü, pisliyi, şeri derk edir. Ona göre de Yenbirde bu meseleleri derk etmek iqtidarında olmayan kiçik yaşlı oğullarına hemin qanı (köhnelmiş qan) içmeyi qadağan edir. Atanın qadağasını pozan Şulken vaxtından tez qanı içdiyine göre şer qüvvelerin, şer ruhların xidmetçisine çevrilir.

Qandan içki düzelmesi üsulu da çox maraqlıdır. İçki üçün nezerde tutulmuş qanı her heyvandan deyil, otla qidalanan heyvandan qara zeli vasitesile sordurараq, balıqqulağına doldurub müeyyen müddet orada saxladıqdan sonra istifade edirler. Bunun üçün de lazımi yaş ve cesaret seviyyesi teleb olunur. Bu hal ancaq içkiden istifade de deyil, eyni zamanda yemekden istifade üsullarında da özünü büruze verir. "Ural batır" eposunda ailenin çox maraqlı gidalanma normative mövcuddur. Onların ovladıqları heyvandan qida üçün istifade üsulları da müxtelifdir. Eger ovlanın heyvan erkekdirse kişi ile qadın ikisi başını, Şulken, Ural, it, şir, qızıl quş, durna balığın ise galan hissesini yeyirler.[3]

Eger ovlanın heyvan dişidirse erle arvad üreyini götürürler.[4]

Atanın qoyduğu qadağa da exlaqi-estetik cehetden çox maraqlıdır. Bele ki, atanın qadağası tekce yaş heddi ile ölçülmür, onların gösterdikleri şücaet, qehremanlıq ile seciyelenir. Ata o vaxt oğullarına qan içmeye, heyanın baş ve üreyini yemeye icaze verecekdir ki, onlar ele bir yaş heddine çatsınlar ki, özleri heyvan ovlamağı bacarsınlar.[5]

Buradan aydın göründüyü kimi bu ailenin yemek qaydası eyni zamanda semvolik seciyye daşıyır. Eger "Kitabi-Dede Qorqud" dastanında igid adını özünün emelleri, qehremanlığı ile qazanırdısa, ye'ni bir qayda olaraq bu dastanda qehreman öz şücaeti, qehremanlığı sayesinde ad alırdısa ve eyni zamanda seçilen ad hemin qehremanlığın, şücaetin simvollaşmış me'nasını eks etdirirse,[6] "Ural batır" dastanında da qehreman qoyulan şertleri yerine yetirdikleri batırlığa layiq yemek şerefine nail ola bilerdi. mehz Şulken hemin qadağanı vaxtından

tez pozduğuna göre şer qüvvelerin vasiteçisine çevrilerek batırlığa yüksele bilmir. Aydın bir heqiqetdir ki, Batır adını da ancaq müqeddes amallı insanlar ve bu amal uğrunda mübarize apararaq qalib çıxan şexsler qazana bilerdi ki, bu da Urala nesib olur. Batırlıq qazanmayınca qidalanma normativne göre onlar atanın nezerinde istifade etdiyi heyvanlarla bir seviyyede dururlar. Burada yemeyin remzi me'na daşıdığı daha qadarıq nezere çarpır. Bele ki, atanın şertlerini yerine yetirdikleri vaxt onlar batırlara layiq yemeye nail olaraq, heyvanlar aleminden ferqlene bilerler.

"Ural Batır" dastanında dörd terefden su ile ehatelenmiş bir adanın tesviri var. Bu dastanın meişet tasvirindeki arxaiklik başqa türk dastanları ile tipoloji müqayise zemninde daha çox aşkarlana biler. Qedim türk dastanları: "Köqüdey"de, "Maaday Qara"da, "Kitabi-Dede Qorqud"da meişet daha inkişaf etmiş seviyyededir. Bele ki, bu dastanlarda her bir xalqın öz adet en'enesini eks etdiren meişet tesvirleri geniş yer tutur. Hemin dastanların meişet tesvirinde "Ural batır"dan ferqli olaraq oddan istifade üsulları mövcuddur. Bu dastanlarda ovlanan heyvanlar her xalqın öz meişetinin, metbexinin telebi seviyyesinde bişirilir. Meselen: "Köqüdey" dastanında vurulmuş maralların eti yeke mis qazanlarda bişirilir, içki ikimi araqdan, çeqenden[7] istifade edilir. "Maaday Qara" dastanında meişet bir qeder tekmilleşmeye doğru irelileyir. Maaday Qaranın sürüleri, ilxıları, naxırları ve s. var. 90 guşeli yumurtası (ev) daşdan tikilib, pambığdan 70 qatlı döşeyi, 7 qatlı yastığı, altındakı yataqda Ayın qızıl tesviri, qehveyi yorğanında Günün tesviri var. Yemek gümüş qazanlarda bişirilir.[8]

"Kitabi-Dede Qorqud" dastanının meişetinde tekmilleşme bir qeder de ireli getmişdir. Otaqlar münasibetlere göre renglenerdi.

"Oğlu olanı ağ otağa, qızı olanı qızılı otağa, oğlu qızı olmayanı qara otağa qondurun"[9] Otaqlar, e'la xalı, ipekle döşenmiş olur. Yemek medeniyyeti son derece yüksekdir. Yeddi illik şerab içkisinden istifade edilir. Xalqın qedim milli geyim növünün tesviri var.[10]

"Ural Batır" dastanının arxayinliyini gösteren tesvirlerden biri de onların minik vasiteleri kimi atdan deyil, şirden istifade etmesidir.[11]

"Ural Batır" dastanından ferqli olaraq, bütün türk dastanlarında ("Köqüdey" istisna omaqla) bir qayda olaraq minik vasitesi kimi atdan istifade edilir. Lakin bu dastanda at hele insanlara mexsus deyil, O, kosmoqonik qüvvelere mexsusdur. İnsan o vaxt hemin ata sahib ola biler ki, xeyir emel sahibi olsun, xeyire xidmet etsin. Dastanın finalında Güneşle Samrau quşunun övladı Humaya mexsus Ağboz at yere enerek öz ixlasını yaradıb insanlara xidmet elemeye başlayır. Köqüdeyin öküze minmesi de bir o qeder maraq doğurmur. Bele ki, qoşqu vasitesi kimi istifade edilen bir heyvanın minik vasitesi kimi nezerde tutulması heç de teeccüblü deyil. Lakin "Ural batır" dastanında qehremanın şir minmesi, heç bir silah növü tanımaması arxainliyi tesdiqetme baxımından baraqlı hal sayıla biler. Onların meişet terzi ilk insanların (ilk ecdadların) yaşam terzine uyğun gelir. Bu hal Yenbirde ve Yenbikenin ov etme sahnesinde daha qabarıq nezere çarpır. Hemin aile hele heç bir silah növü tanımır. Ov zamanı ox, yay götürmürler. Eger balıq ovlamaq isteyirlerse durna balığından, quş tutmaq isteyirlerse şahinden istifade edirler.[12]

"Ural Batır" dastanında ferqli olaraq Şumer dastanı "Bilqamıs" da, türk dastanlarından olan "Maaday Qara"da, Kitabi-Dede Qorqud"da "Köqüdey"de herb seneti ile qarşılaşırıq.

Altay dastanı "Maaday Qara"da herb senedinin tesviri dastanın xaqanlıq dövrünün mehsulu olduğunu demeye esas verir. Dastandan aydın olur ki, yer üzünde 70, Altayda 60 xaqanlıq mövcud-

dur. Sayı-hesabı bilinmeyen ordu var. Xarici portret tasviri dastanın aid olduğu dövrü müeyyen etmeye kömek eden esas amillerdendir. Dastanın Altay xalqına mexsus herbi geyiminin geniş tesviri dastanı yaradan şexsin çox zengin portret yaratmaq qabiliyyetinden xeber verir. "Maaday Qara"nın herbi geyiminin tesvirine deqqet edek: "62 düymeli şalvar, 90 qatlı çuğun altlığı olan qara çekmesi, 62 ay kimi parıltılı, qızılı rengli düymeli sincab derisinden kürkünü, 72 gün kimi şö'le saçan gümüşü düymeli güneşli kürkünü, tunc ve qızıl işlemeli debilqesini geydi. Qızıl işlemeli tunc kemerini bağladı. Üstden 68 düymeli tunc qızıl işlemeli zirehini geydi.[13]

Reqemlerin hiperbolik seviyyede tesvirinin esas sebebi ye'qin ki, geyimin herbir ezemetini nezere çatdırmaq meqsedi daşıyır.

"Ural Batır" dastanının ise bele portret tesvirlerinden uzaq olması onu başqa qedimi türk dastanlarından esaslı suretde ferqlendirir. Ümumiyyetle, dastanda meişet tesvirinin esas elementi olan geyimin adi bir detalının bele tesviri yoxdur.

"Kitabi-Dede Qorqud" dastanında meişet tesviri daha zengindir. Burada meişetin atributlarından sayılan yemek, geyim, yaşayış meskenlerinin şerq üslubundakı bezek tesvirleri ile yanaşı türk milletine xas qedim toy-nişan adet en'enelerinin tesvirine rast gelmek mümkündür. Bele ki, "Bayburanın oğlu Bamsı Beyrek boyu'nda xalqın qedim nişan adet-en'enesinin başlıca şertlerinden olan başlıqvermenin elametleri mövcuddur. Banuçiçeyin qardaşı Deli Qarcar bacısı üçün aşağıdakı qeder başlıq teleb edir.

"Min buğra (ner) getirin kim, maya (üzün) görmemiş ola. Min dexi ayğır getirin kim, heç qısrağa aşmamış ola. Min dexi qoyun görmemiş qoç getirin. Men dexi quyruqsuz, qulaqsız köpek getirin. Min dexi (iri) bire getirin mana, dedi - Eger bu dediyim nesneleri getirseniz xoş, verdim."[14]

Dastan ve nağılların bir çoxunda bu cür ağır başlıqların, çetin sınaqların mövcudluğu qız adının, şerefinin uca tutulduğuna işaredir.

"Kitabi-Dede Qorqud" dastanında Oğluzların toy adet-en'enesinin gözel tesviri var: "Oğuz zamanında bir yigid ki, evlense ox atardı. Oxu ne yerde düşse anda gerdek tikdirerdi. Beyrek xan daxi oxun atdı, dibine gördeyin tikdi. Adaxlısından ergenlik bir qırmızı qaftan geldi.[15]

Başqırd dastanı "Ural Batır"da ise sınaqlar mövcud olsa da bu cür toy-nişan en'enesini kiçicik izi bele olmadığı bu dastanın arxainkliyini sübut etme baxımından maraqlıdır.

Buradan bele netice çıxarmaq olar ki, "Ural Batır" abidesi meişet tipologiyasına celb edilmiş dastanlardan zaman baxımından daha arxaikdir.

* Bakı Dövlet Üniversiteti, Filologiya Fakültesinin Baş Elmi İşçisi

**QAYNAQLAR**


1. Başkort xalık eposı, M., 1977, seh.55.
2. Yene orada. seh.57.
3. Yene orada. seh.56.
4. Yene orada. seh.56.
5. Yene orada. seh.56.
6. Kitabi-Dede Qorqud, B., 1978, seh.23.
7. Çeqen-südden düzeldilmiş içki.
8. Maaday-Kara. M., 1973, sh.71.
9. Kitabi-Dede Qorqud. B., 1978, seh.19.
10. Yene orada, seh.31.
11. Başkort xalık eposı. M., 1977, seh.56.
12. Yene orada, seh.56.
13. Maaday-Kara. M., 1977, seh.72-73.
14. Kitabi-Dede Qorqud. B., 1978, sh.33.
15. Yene orada, seh.55.